# Milli ruhu özündə birləşdirən sənətçi

Görkəmli Azərbaycan musiqiçisi, Respublikanın Xalq artisti Munis Şərifovun 60 yaşı tamam olur. Böyük sənətkar şərəfli həyat yolu keçmişdir. 1977-ci ildə A.Zeynallı adına Musiqi Texnikumunu,1986-cı ildə Azərbaycan Dövlət Konservatoriyasını müvəffəqiyyətlə bitirmişdir. O, 1990-cı ildən Bakı Musiqi Akademiyasında konsertmeystr müəllim kimi fəaliyyətini davam etdirmişdir. Bununla yanaşı Bakı Musiqi Akademiyasının qədim musiqi alətlərinin bərpası elmi laboratoriyasının əməkdaşı kimi səmərəli fəaliyyət



göstərib. Şərəfli ömür yolu keçmiş sənətçi qədim musiqi alətləri ansamblının rəhbəri kimi bir çox dövlət tədbirlərində iştirak etmişdir. 2002-ci ildə Fransanın Paris və Strasburq şəhərlərində YUNESKO-nun tədbirlərində konsert proqramı ilə Azərbaycan musiqi sənətini uğurla təmsil etmişdir. Ansamblın ifasında YUNESKO tərəfindən kompakt disk dinləyicilərin ixtiyarına verilmişdir. Respublikanın Xalq artisti Munis Şərifov calışdığı ansamblla birlikdə 2005-ci il Düşənbədə "Qəlblərin səsi" festivalında İstanbul şəhərində "İslam ölkələrinin mədəniyyət həftəsi" çərçivəsində təşkil edilmiş mədəni proqramlarda yüksək səviyyədə çıxışları tamaşaçıların alqışları ilə müşayiət olunmuşdur. Xidmətləri dövlət səviyyəsində qiymətləndirilib. 2016-cı ildə Azərbaycan musiqi mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Xalq artisti fəxri adı, 2019-cu il 10 mayda isə prezident mükafatına layiq görülmüşdür. Bu sənətə sevərəkdən gələn hər bir nəğməyə, musiqiyə sevə-sevə yanaşan, dəyər verən, yeniliyi ilə seçilən böyük sənətkar, doğum gününüz mübarək. Xalqımızın sayılıb-seçilən sənət fədaisi, ustad sənətkar, cəfakeş müəllim, müsəlman adət-ənənələrini özündə qoruyub saxlayan Munis Şərifov gözəl ailə sahibidir. Xalqımızın milli aləti olan kamançanı ifa etdikdə, milli musiqiyə olan sevgisini duyduqca heç bir şərhə ehtiyac duyulmur.

Bütövlükdə, milli ruhu özündə birləşdirən bu sənətçiyə qürur və fəxarət hisslərimizi çatdırır, ona xeyirxah işlərində uğurlar diləyirik.

Bakı Göz Klinikasının direktoru professor K.Kərimov və əməkdaşları bu yubley münasibətilə Munis Şərifovu təbrik edir, möhkəm can sağlığı və yaradıcılıq uğurları arzulayır.